# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 may tarixli 247 nömrəli Qərarı ilə təsdiq edilmiş "İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərin siyahısı və həmin xidmətlərə görə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə ödəniləcək haqların məbləğləri"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 may tarixli 247 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 980) ilə təsdiq edilmiş "İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərin siyahısı və həmin xidmətlərə görə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə ödəniləcək haqların məbləğləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci, 2.8-ci və 2.13-cü bəndlərdə "30" rəqəmləri "45" rəqəmləri ilə, 2.2-ci bənddə "10" rəqəmləri "15" rəqəmləri ilə, 2.3-cü bənddə "60" rəqəmləri "90" rəqəmləri ilə, 2.4.1-ci yarımbənddə "80" rəqəmləri "120" rəqəmləri ilə, 2.4.2-ci yarımbənddə "50" rəqəmləri "75" rəqəmləri ilə, 2.5-ci bənddə "11" rəqəmləri "17" rəqəmləri ilə, 2.6.1-ci yarımbənddə "95" rəqəmləri "143" rəqəmləri ilə, 2.6.2-ci yarımbənddə "45" rəqəmləri "68" rəqəmləri ilə, 2.6.3-cü yarımbənddə

“145” rəqəmləri “218” rəqəmləri ilə, 2.7.1-ci, 2.7.2-ci və 2.7.3-cü yarımbəndlərdə “5” rəqəmi “8” rəqəmi ilə, 2.9-cu və 2.14-cü bəndlərdə “40” rəqəmləri “60” rəqəmləri ilə, 2.10-cu bənddə “135” rəqəmləri “203” rəqəmləri ilə, 2.11-ci bənddə “15” rəqəmləri “23” rəqəmləri ilə və 2.12-ci bənddə “25” rəqəmləri “38” rəqəmləri ilə əvəz edilsin.

2. 1.8.2-ci yarımbəndə “hər artan” (birinci halda) sözlərindən sonra “il üçün 8 manat artırılmaqla, digər” sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda 1.23-cü bənd əlavə edilsin:

| | | |
|---|---|---|
| 1.23. | İxtiranın, faydalı modelin və sənaye nümunəsinin reyestr məlumatlarından çıxarışın verilməsi üçün | 15 manat |

4. 2.2-ci bənddə “Göstəricinin” sözü “Əmtəə nişanının və coğrafi göstəricinin” sözləri ilə əvəz edilsin.

5. “Qeydlər”in 1-ci hissəsində “40” rəqəmləri “60” rəqəmləri ilə, 2-ci hissəsində isə “120” rəqəmləri “180” rəqəmləri ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 19 may 2022-ci il

№ 198